

Misirin devrilmiş prezidenti Məhəmməd Mursinin fevralın 16-da keçirilmiş məhkəməsinin ittihamnaməsi ortaya çıxıb.

"Axar.az" türk mətbuatına istinadən xəbər verir ki, Mursi və 35 nəfər milli müdafiə sirlərini yaymaqda və Misirin sabitliyini pozmaq məqsədilə İran İnqilab Keşikçiləri Korpusuna hesabatlar verməkdə ittiham olunurlar.

Növbəti məhkəmə prosesi fevralın 27-nə təyin olunub.

Qeyd edək ki, Məhəmməd Mursi ötən ilin iyulunda ordunun çevrilişi nəticəsində hakimiyyətdən uzaqlaşdırılaraq, həbs olunmuşdu.